**Azərbaycan Respublikası**
**Gənclər və İdman Nazirliyi**

**Ümidli Gələcək**
**Gənclər Təşkilatı**

## Mətbuat üçün məlumat

## *NEFTÇALA RAYONUNDA GƏNCLƏR ARASINDA HİV/AİDS və NARKOMANİYANIN PROFİLAKTİKASINA DAİR TƏLİM*

**19-20 İyun 2009-cu il tarixində Ümidli Gələcək Gənclər Təşkilatı Neftçala rayon İcra Hakimiyyəti və Neftçala rayon Gənclər və İdman İdarəsi ilə əməkdaşlıqda və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyilə Neftçala rayonunda gənlər və yerli ictimai təşkilatların fəalları üçün HİV/AİDS və Narkomaniyanın profilaktikasına dair gələcək təlimçilər üçün təlim kursu keçirəcəkdir. Təlimlə yanaşı, bu rayonun əlaqədar dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə geniş tərkibli görüşün keçirilməsi də planlaşdırılır.**

**Təlim zamanı iştirakçılara layihə çərçivəsində hazırlanmış təlim kitabı, plakatlar və bukletlər də təqdim ediləcəkdir.**

**---------------------------------------------------------------**

*Ümidli Gələcək Gənclər Təşkilatı Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyilə ölkənin Astara, Lənkəran, Masallı, Biləsuvar, Salyan, Neftçala və Füzuli rayonlarinda "AZƏRBAYCANIN CƏNUB REGİONUNDA GƏNCLƏR ARASINDA HİV-AİDS və NARKOMANİYANİN PROFİLAKTİKASINA dair MAARİFLƏNDİRMƏ PROQRAMI" adli layihə həyata keçirir. Layihənin məqsədi adları göstərilən rayonlarda fəal gənclərin maarifləndirilməsi vasitəsilə HİV/AİDS və narkomaniyaya qarşı ictimai fəallığın səviyyəsinin artırılmasıdır.*

*Layihənin gerçəkləşdirilməsində təşkilatın mütəxəssisləri ilə yanaşı yerli gənclərin və gənclər təşkilatlarının resurslarından da istifadə etmək, həmçinin, sonradan - layihə başa çatdıqdan sonra da görülən işləri yerli resurslar hesabına davam etdirə biləcək təlimçilərin hazırlanması da nəzərdə tutulur.*

Ünvan:
Nizami küç. 117, AZ-1010
Bakı, Azərbaycan

Tel: (994-12) 4932-142
Faks: (994-12) 4932-142
Mobil Tel: (994-50) 349 29 48

E-mail: relfuture@azdata.net
nzseidov@yahoo.com